# Dayanıqlı inkişaf, modern infrastruktur, müasir yollar




## Genişmiqyaslı layihələr ölkəmizin iqtisadi gücünü göstərir

***Azərbaycanda hər bir sahədə müsbət irəliləyişlərə nail olunması bir daha deməyə əsas verir ki, ölkədə dayanıqlı inkişaf uğurla təmin edilib. Atılan bütün addımlar Azərbaycanın inkişafına, xalqın sosial rifah halının yaxşılaşdırılmasına xidmət edir. Ölkəmiz nəinki regionda, dünya miqyasında seçilir və beynəlxalq aləmdə ona maraq günü-gündən artır. Hazırda əksər ölkələrin iqtisadi böhran yaşadığı zamanda Azərbaycan böyük bir ərazidə təxirəsalınmaz tikinti-quruculuq aparır. Dövlətin qəbul etdiyi Böyük Qayıdış Proqramı çərçivəsində Qarabağ və Şərqi Zəngəzurda müasir şəhərsalma tələblərinə cavab verən yaşayış məntəqələri, ən yüksək səviyyədə salınan yeni yollar və müxtəlif infrastruktur obyektləri inşa olunur.***

*"Azad edilmiş ərazilərdə görülən işlərin əsasını nəqliyyat layihələri təşkil edir. 3400 kilometrə yaxın avtomobil yolu - hələlik cəmi 44 avtomobil yolu layihəsi icra edilib, ya da ki, icra edilməkdədir. Eyni zamanda 45 tunel, 447 körpü, 16 viaduk nəzərdə tutulub. Bunlardan 28 tunel, 392 körpü və 9 viadukun tikintisi tamamlanmışdır".* Bu fikirləri Prezident İlham Əliyev nəqliyyat məsələlərinə həsr olunmuş müşavirədə bildirib. Horadiz-Ağbənd dəmir yolunun 60 faizinin, Bərdə-Ağdam dəmir yolunun 94 faizinin inşa edildiyini bildirən dövət başçısı deyib: *"Bu, sadəcə olaraq, əsas layihələrdir ki, mən ictimaiyyətin diqqətinə çatdırıram və bu rəqəmlər hər şeyi deyir, hər şeyi göstərir. Göstərir ki, hansı ölçüdə biz nəqliyyat layihələrini icra etmişik. Əgər biz bunları icra etməsəydik, bu gün həm Bakı şəhəri, həm digər şəhərlər, həm də ümumiyyətlə, ölkə şəhərləri arasındakı bağlantılar bizim nəqliyyat imkanlarımızı tamamilə iflic vəziyyətinə sala bilərdi".*

Prezident İlham Əliyevin yanvarın 28-də nəqliyyat məsələlərinə həsr olunmuş müşavirədəki çıxışı bu infrastrukturun inkişafının ölkə üçün nə qədər vacib olduğunu bir daha göstərdi. Müşavirədə Bakı şəhərinin və ətraf ərazilərin nəqliyyat infrastrukturunun daha da yaxşılaşdırılması məqsədilə görülən işlər və qarşıya qoyulan hədəflər ətrafında geniş müzakirələr aparıldı. Dövlət başçısının vurğuladığı məsələlər həm şəhər daxilindəki tıxac problemini, həm də ölkənin müxtəlif regionlarında nəqliyyat sisteminin inkişafını hədəfləyən yeni layihələri əhatə edir. Ölkə başçısının çıxışında diqqətçəkən mühüm məqamlardan biri də nəqliyyat məsələlərini əhatə edən Dövlət Proqramının hazırlanması zərurəti idi. Dövlətin nəqliyyat sahəsindəki strateji planlarına görə, rəqəmsal infrastrukturun inkişafı ilə yanaşı, daha müasir nəqliyyat vasitələri və sistemlərinin tətbiqi də ön planda dayanır.

Son 20 ildə ölkəmiz bütün sahələrdə böyük nailiyyətlərə imza atıb. İqtisadi inkişaf tempi, o cümlədən nəqliyyat sisteminin inkişaf konsepsiyası cənab İlham Əliyevin rəhbərliyi ilə daha da təkmilləşərək uğurla davam etdirilir və bu sahədə aparılan ardıcıl islahatlar ölkənin nəqliyyat sektorunu da ən perspektivli sahələrdən birinə çevirib. Bütün növ nəqliyyat infrastrukturlarının etibarlılığının təmin olunması, nəqliyyatın işinin səmərəli təşkili üçün zəruri tədbirlər görülüb, nəzərdə tutulan infrastruktur layihələrinin vaxtında və keyfiyyətlə icra edilməsinə nail olunub. Respublikanın nəqliyyat sistemi əhəmiyyətli dərəcədə genişlənib. Beynəlxalq yol-nəqliyyat sistemi ilə yanaşı, respublikadaxili, həm şəhərlərarası, həm də kənd yollarının tikintisi, təmiri geniş vüsət alıb. Bu gün Azərbaycanın müxtəlif bölgələrində, eləcə də paytaxt Bakı ilə yanaşı, yenidən qurulan Qarabağ və Şərqi Zəngəzurda müasir yollar çəkilir.

Qürurlu və təqdirəlayiq haldır ki, Vətən müharibəsində əldə edilən tarixi qələbə özü ilə bir sıra reallıqlar gətirdi ki, onlardan biri 30 il erməni işğalı altında qalan ərazilərdə yeni infrastrukturun yaradılması ilə bağlı idi. Çünki Ermənistan işğal dönəmində bütün şəhər və kəndlərdəki infrastrukturu dağıdaraq sosial obyektləri, yol və körpüləri, elektrik stansiyalarını, su anbarlarını sıradan çıxarmışdı. Məhz bu səbəbdən də 8 Noyabr zəfərindən sonra Azərbaycan dövləti məcburi köçkünlərin öz doğma torpaqlarına qayıdışını təmin etmək üçün sosial infrastrukturun bərpası istiqamətində sistemli addımlar atmağa başladı.

Böyük Qayıdış proqramı çərçivəsində Qarabağ və Şərqi Zəngəzurda şəhər və kəndlər yenidən tikilir, infrastruktur layihələri icra olunur, yollar inşa edilir, yeni istehsal müəssisələri yaradılır, yaşıllıqlar salınır, ərazilər mina və partlamamış hərbi sursatlardan təmizlənir, keçmiş məcburi köçkünlər mərhələli şəkildə yenidən doğma yurdlarında məskunlaşırlar. İşğaldan azad olunmuş ərazilərdə həyata keçirilən genişmiqyaslı işlər içərisində infrastruktur layihələri mühüm əhəmiyyət kəsb edir. Çünki infrastrukturun yüksək səviyyədə yenidən qurulması həm işğaldan azad olunmuş ərazilərin iqtisadi potensialından səmərəli istifadə edilməsində, həm də oraya qayıdacaq insanların normal həyat şəraiti ilə təmin olunmasında mühüm rol oynayır. Həyata keçirilən infrastruktur layihələri içərisində yolların yenidən qurulması xüsusi yer tutur.

Qeyd edək ki, məhz azad olunmuş ərazilərdə həyata keçirilən ilk layihə Tərtər rayonunun Suqovuşan qəsəbəsinə və Talış kəndinə gedən yolların bərpası oldu. Suqovuşan kəndi Azərbaycan Ordusunun həyata keçirdiyi uğurlu əks-hücum əməliyyatı nəticəsində 2020-ci il oktyabrın 3-də işğaldan azad edildi və Prezident İlham Əliyevin tapşırığı ilə hələ döyüşlərin davam etdiyi vaxtda yolun çəkilişinə başlanıldı. Suqovuşan və Talışın azad olmasının birinci ildönümündə - 2021-ci il oktyabrın 3-də Prezident İlham Əliyevin iştirakı ilə bu istiqamətlərdə çəkilən avtomobil yollarının açılışı oldu. Çox mühüm əhəmiyyət daşıyan yollardan biri, əlbəttə ki, Ali Baş Komandan İlham Əliyevin Zəfər yolu adlandırdığı Füzuli-Şuşa yoludur. Bu, qalib Azərbaycan Ordusunun ölkəmizin mədəniyyət paytaxtı Şuşa şəhərini mənfur düşməndən azad edərkən istifadə etdiyi cığırın əbədiləşdirilməsi məqsədilə salınan yoldur. Yolun tikinti işləri cəmi 10 ay ərzində həyata keçirilib. Bu səbəbdən deyə bilərik ki, nəinki regionda, hətta yol tikintisi tarixində belə genişmiqyaslı, qısa müddət ərzində respublika əhəmiyyətli yolun inşası aparılmayıb.

Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın 2020-ci il noyabrın 16-da Füzuli rayonuna səfəri zamanı yolun təməli qoyulmuşdu. Noyabrın 17-də dövlət başçısının imzaladığı Sərəncama əsasən, ümumi uzunluğu 101,5 kilometr olan bu avtomobil yolunun layihələndirilməsi və tikintisi üçün ilkin olaraq 50 milyon manat ayrıldı. 2021-ci il noyabr ayının 7-də isə dövlət başçısı yolun açılışını etdi. Vurğulamaq lazımdır ki, Prezident İlham Əliyevin tikintisi ilə mütəmadi olaraq maraqlandığı Zəfər yolu 2021-ci ilin sentyabr ayından istifadəyə verilmişdir. Bir sözlə, Qarabağ və Şərqi Zəngəzurda inşa olunan yolların hər biri Vətən müharibəsindəki qələbəmizi, Ali Baş Komandan İlham Əliyevin quruculuq əzmini simvolizə edir, dünya bir daha Azərbaycanın gücünə, qüdrətinə heyran qalır. Prezident İlham Əliyevin bildirdiyi kimi, "Yol həm mədəniyyətdir, həm rahatlıqdır, həm müasirlikdir, həm də ölkənin səviyyəsini göstərir". İndi işğaldan azad olunan Şuşa şəhərinə səfər edənlər "Zəfər yolu"ndan keçirlər. Bu yol bizim müasirliyimizin və inkişafımızın göstəricisidir. 2020-ci ildə İkinci Qarabağ müharibəsindəki qələbədən sonra Azərbaycan işğaldan azad edilmiş ərazilərdə minlərlə kilometr avtomobil yolu çəkir. Prezident İlham Əliyev Kəlbəcər-Laçın avtomobil yolu üzərində tikiləcək 3,4 kilometr uzunluğundakı tunelin təməlqoyma mərasimində deyib ki, Şərqi Zəngəzurun hərtərəfli inkişafı üçün avtomobil yolları xüsusi əhəmiyyət daşıyır: "Azad edilmiş torpaqların investisiya proqramı tutulanda mənim göstərişimlə məhz tunellər də bu layihələrə salınmışdır, o cümlədən Şuşaya gedən yolda və burada tunellər çəkilməkdədir. Tunelin tikintisi həm çətindir, xüsusilə belə ağır dağlıq relyefdə, eyni zamanda çox böyük xərclər tələb edir. Ancaq biz bunu edirik və edəcəyik. Çünki bu, bölgənin, Şərqi Zəngəzurun inkişafına lazımdır".

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq, işğaldan azad olunmuş ərazilərdə icra edilən yol layihələrinin sayı 44, ümumi uzunluğu isə 3040 kilometr təşkil edir. Bunlardan 6 avtomobil yolunun tikintisi işləri ötən illərdə başa çatdırılıb. Tikintisi davam edən 38 layihənin isə 2025-2026-cı illərdə başa çatdırılması nəzərdə tutulub. İşğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı yenidənqurma çərçivəsində dəmiryol infrastrukturu da bərpa edilir. Horadiz-Ağbənd dəmir yolu xəttində tikinti işləri davam etdirilir. Bərdə-Ağdam dəmir yolu xəttinin çəkilişi başa çatıb. Ağdam avtovağzal və dəmiryolu vağzalı kompleksinin tikintisi həyata keçirilir. Horadiz stansiyası ilə yanaşı, digər yeddi stansiya - Mərcanlı, Mahmudlu, Soltanlı, Qumlaq, Mincivan, Bartaz və Ağbənd tamamilə yenidən tikiləcək. Hazırda dəmir yolu xətti bütövlükdə topoqrafik plana alınıb, konseptual planı hazırlanıb, minalardan təmizlənmiş 39 kilometrlik hissəsində torpaq yatağının hazırlanması, həmçinin süni qurğuların tikintisi həyata keçirilir. Füzuli-Şuşa istiqamətində ilk dəfə inşa ediləcək birxətli elektrikləşdirilmiş dəmir yolu xəttinin ox üzrə uzunluğu 83,4 kilometrə bərabərdir. Layihə çərçivəsində iki yeni stansiya - Füzuli və Şuşa stansiyalarının, habelə 200-ə yaxın süni mühəndis qurğularının layihələndirilməsi və tikintisi planlaşdırılır. Hazırda dəmir yolu xəttinin trassasının ümumilikdə topoqrafik tədqiqat işləri tamamlanmışdır və mühəndis qurğularının layihələndirilməsi işləri davam etdirilir.

Qarabağ və Şərqi Zəngəzurda reallaşan infrastruktur layihələri arasında hava limanları da müstəsna əhəmiyyət daşıyır. Artıq Füzuli və Zəngilan Beynəlxalq Hava Limanları tikilərək istifadəyə verilib. Laçın Beynəlxalq Hava Limanının bu il istifadəyə verilməsi nəzərdə tutulub. İşğaldan azad olunmuş ərazilərdə tikilən hava limanları bölgənin əhəmiyyətini artırmaqla yanaşı, gələcəkdə turizm potensialının artmasına da imkan yaradacaq. İşğaldan azad edilən ərazilərdə nəqliyyat və logistikanın inkişafı əsas istiqamətlərdən biridir. Bu istiqamətlər sırasında yeni nəqliyyat layihələrinin reallaşması və əvvəlki yolların əsaslı təmir olunması da yer alıb. Bu, Qarabağ və Şərqi Zəngəzurun daha da cəlbediciliyi baxımından vacibdir. Nəqliyyat və logistikanın inkişaf etməsi məşğulluğun daha da sürətlənməsini və qısa zamanda vətəndaşların öz yurdlarına qayıtmasını təmin edəcək. Bununla yanaşı, biznesin işğaldan azad olunmuş ərazilərə transferi baxımından da vacibdir. Məlumdur ki, artıq Qarabağ və Şərqi Zəngəzura yerli, xarici sahibkarlar tərəfindən sərmayə qoyuluşu həyata keçirilir.

Prezident İlham Əliyev müşavirədə Zəngəzur dəhlizi məsələsinə də diqqəti cəlb etməklə mühüm məqamlara toxundu. Dövlət başçısı qeyd edib: "Ermənistanın tranzit ölkəyə çevrilmə arzusu gözündə qalacaq. İkinci körpü də inşa ediləcək, artıq Naxçıvan Muxtar Respublikasında. Birinci körpü Zəngilan rayonu ərazisində inşa edilir. Beləliklə, Ermənistan bundan sonra da dalan ölkə kimi davam edəcək və onların tranzit ölkəyə çevrilmə arzuları elə onların gözlərində qalacaq. Özləri daha çox itirəcəklər, nəinki biz. Ona görə bu məsələ diqqət mərkəzində olacaq və həm beynəlxalq müstəvidə, həm Ermənistanla ikitərəfli təmaslar əsnasında daim bir məsələni qeyd edirik ki, Azərbaycandan Azərbaycana maneəsiz keçid olmalıdır". Azərbaycan öz torpaqları arasında maneəsiz keçid tələb edir. Bu, həm beynəlxalq hüquqa, həm də 10 noyabr Bəyanatının müddəalarına tam uyğundur. Ermənistanın isə "sülh kəsişməsi" kimi reallıqdan uzaq layihələri gündəmə gətirməsi yalnız beynəlxalq ictimaiyyəti çaşdırmaq cəhdidir və Azərbaycanın iştirakı olmadan bu cür layihələrin heç bir əhəmiyyəti yoxdur.

İşğaldan azad olunmuş ərazilərdə nəqliyyatın inkişaf etdirilməsi, beynəlxalq standartlara uyğun olaraq qurulması bu bölgələrin iqtisadiyyatının daha qısa zamanda formalaşmasına, reinteqrasiyasına imkan verəcək. İşğaldan azad edilmiş ərazilərimizdə bərpa işləri çərçivəsində həyata keçiriləcək layihələr bir daha Azərbaycanın gücünü və qüdrətini nümayiş etdirir. Cənab Prezidentin vurğuladığı kimi, "həyat yerində durmur". Azərbaycan Prezidentinin təsdiq etdiyi yeni Dövlət Proqramının icrası Azərbaycanın nəqliyyat infrastrukturunun bundan sonra da inkişafına zəmin yaradır.

**Mustafa KAMAL,**
**"Respublika".**










